
Ceyms Metyu Barri
Piter Pen
Böyümək istəməyən bir uşaq

JAMES METTHEW BARRIE

# PETER PAN

Nağıl-povestin baş qəhrəmanı heç vaxt böyümək istəmir. Adi uşaqlar kimi əylənməyi sevir. Olduqca nadinc, həm də böyüklər kimi qürurludur. Qisasçı və döyüşkən, eyni zamanda uçmağı bacaran biridir. Kimsəsiz uşaqları himayə edir. Onları dəniz quldurlarından, əzazil kapitandan qoruyub azadlığa çıxarmağa çalışır.

**James Metthew Barrie PETER PAN**
**Ceyms Metyu Barri PİTER PEN**
Bakı, Qanun Nəşriyyatı, 2024, 224 səh.

Janr: fiction/nağıl/povest
Ölçü: 145x215 mm
Cild: yumşaq
Çapa imzalandı: 01.03.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Füzuli Əsgərli<br>*"Qızıl qələm" mükafatı laureatı* |
| Redaktorlar: | Şəfa Əhmədova,<br>Xuraman Məmmədhüseyn qızı |
| Korrektor: | Nihat Pirizadə |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Yekaterina Klimova |
| Rəssam: | A.Vlasova |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36- 432-3

© Qanun Nəşriyyatı, 2018; 2020; 2024
© James Barrie, 1911

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

## KİTABIN İÇİNDƏKİLƏR


**I fəsil.** Piter Pen dincliyi pozur – 9

**II fəsil.** Kölgə – 22

**III fəsil.** Uçuşa hazırlıq – 41

**IV fəsil.** Uçuş – 66

**V fəsil.** Əsl ada – 77

**VI fəsil.** Balaca evcik – 94

**VII fəsil.** Yeraltı ev – 112

**VIII fəsil.** Su pərilərinin körfəzi – 120

**IX fəsil.** Naməlum quş – 138

**X fəsil.** Xoşbəxt ailə – 142

**XI fəsil**. Vendinin söylədiyi nağıl – 150

**XII fəsil**. Uşaqlar oğurlanırlar – 157

**XIII fəsil.** Pərilərin olduğuna inanırsınız? – 162

**XIV fəsil.** Dəniz quldurlarının gəmisində – 172

**XV fəsil.** “Bu dəfə ya Qarmaq öləcək, ya da mən!” – 179

**XVI fəsil.** Uşaqlar evə qayıdırlar – 194

**XVII fəsil.** Vendi böyümüşdür – 206



Birinci fəsil

# PİTER PEN DİNCLİYİ POZUR

Haqqında sizə söz açacağım Piter Pendən savayı dünyaya göz açan bütün uşaqlar zaman keçdikcə böyüyüb boya-başa çatırlar. Yəqin Vendi də bunu bilirdi. Bu, Vendiyə belə bəlli olmuşdu. O, iki yaşında olanda bağçalarında oynayırdı. Birdən gözünə heyrətamiz gözəl bir çiçək sataşdı. Onu dərib anasının yanına qaçdı. Görünür, Vendi bu vaxt çox gözəl görünürdü, ona görə anası, missis Darlinq əlini sinəsinə qoyub ucadan dedi:

– Amma heyif ki, həmişə belə qalmayacaqsan!

Onlar bu barədə bir kəlmə də danışmadılar. Lakin elə həmin vaxtdan Vendiyə aydın oldu ki, o böyüyüb boya-başa çatacaq. Adətən adam iki yaşına çatanda bunu başa düşür...

Vendinin anası qeyri-adi qadın idi. Birincisi, o olduqca gözəl idi. İkincisi, onun ağzının sağ tərəfində demək olar sezilməyən xüsusi bir təbəssüm gizlənirdi. Vendi isə heç vaxt bunu tuta bilmirdi. Təbəssüm görünürdü və bir anın içində də gizlənirdi, elə bil heç olmamışdı. Həm də ananın xasiyyətində nəsə bir qeyri-adilik, demək olar, sehrlilik vardı. Mən indi sizə izah etməyə çalışacağam. Bilirsiniz, belə bir qutular olur. Birini açırsan, içindən biri də çıxır, o birinin içində də üçüncüsü olur. Açmadığın bir qutu isə həmişə ehtiyatda qalır.



Ata, mister Darlinq də missis Darlinqlə beləcə evlənmişdi. Bir gün on nəfərə yaxın cavan oğlan birdən belə bir fikrə düşürlər ki, missis Darlinqlə evlənsinlər. Evlənməyi təklif etmək üçün tez onun yanına qaçırlar. Mister Darlinq isə tez kareta tutur və hamını qabaqlayır. Beləliklə, missis Darlinq ona qismət olur. Hər şey, bircə o gizli təbəssümdən və sonuncu qutudan başqa.

Ana ataya çox hörmət edirdi, ona görə ki, o bankda işləyirdi, səhmləri və faizləri müəyyən edirdi, bütün bunlardan isə ananın sadəcə olaraq başı çıxmırdı. Mister Darlinq deyəndə ki: "Faizlər qalxır", yaxud, "Səhmlər aşağı düşür", belə olanda onun ərinə hörməti daha da artırdı.

Yeri gəlmişkən, birinci Vendi dünyaya göz açmışdı, onun dalınca Con, sonra Maykl gəlmişdi.

Vendi dünyaya gələndə valideynləri xeyli məsləhətləşdilər ki, necə etsinlər, uşağı özlərində saxlasınlar, yoxsa kiməsə versinlər, çünki uşağı yedirtmək asan məsələ deyildi.

Mister Darlinq yatağın qırağında oturub hesablamağa başladı, missis Darlinq isə dayanıb sanki baxışları ilə ona yalvarırdı.

Mister Darlinq ondan xahiş etdi:

– Sən məni çaşdırma. Deməli belə, mənim cibimdə bir funt və on yeddi pens, iş yerimdə isə iki şillinq altmış pensim var. Əgər nahar fasiləsində qəhvə içməsəm, sənin qonşuya verdiyin bir funt on səkkiz şillinqi də bura əlavə etsək, ondan yeddi də çıxsaq... Gör uşaq niyə ağlayır? Deməli, qırx doqquzu da uşağın hesabına çıxsaq... Bax, gördün, çaşdırdın məni! Sözün qısası, sən necə fikirləşirsən, biz doqquz yüz doxsan yeddi funtla bir il dolana bilərikmi?

– Əlbəttə, dolanarıq, – deyə missis Darlinq onun sözünü təsdiqlədi. Ana qızının öz yanında qalmasını istəyirdi.

– Xanazir xəstəliyini unutma, – deyə o, arvadını xəbərdar etdi. – Xanazir xəstəliyinin sağalması bir funta, qızılca bir funt yarıma, göyöskürək isə səkkiz şillinqə başa gəlir.

Onlar Con və Maykl dünyaya gələndə də eynən bu cür həyəcan keçirdilər. Amma axırda onları da öz yanlarında saxlamalı oldular.

Bir az keçəndən sonra artıq uşaqları küçədə görmək mümkün oldu. Onların üçü də dayənin müşayiət ilə küçədə gəzməyə başladılar.

Missis Darlinq ailədə qayda-qanun olmasını çox sevirdi, mister Darlinqsə istəyirdi ki, onların da başqa ailələr kimi hər şeyləri, həm də dayələri olsun. Darlinqlər ailəsi kasıb olduqlarına görə – axı, uşaqlar gör nə qədər süd içirlər – uşaqlara Nena adlı yekə, qapqara bir it dayəlik edirdi. Darlinqlər onu



evlərinə gətirəndə o sadəcə sahibsiz bir it idi. Doğrudur, bu it uşaqlara çox yaxşı baxırdı və Darlinqlər onunla Kensinqton parkında tanış olmuşdular. Nena isə boş vaxtlarını bu parkda keçirir, uşaq arabalarına boylanırdı. Onu başısoyuq dayələr son dərəcə sevmirdilər, çünki it onların dalınca düşüb evlərə kimi gedir, ev sahiblərinə onlardan şikayət edirdi.

Nena dayə yox, tərtəmiz qızıl parçası idi. O, uşaqların hər üçünü də çimdirirdi. Gecələr yuxuda uşaqların biri yerində tərpənən kimi o dəqiqə atılıb gəlirdi. İt damı uşaqların otağında qoyulmuşdu. İt həmişə yanılmadan uşaqların öskürəklərini fərqləndirə bilirdi ki, hansı öskürək zamanı uşaqların boğazına köhnə yun corab sərmək lazımdır. Nena artıq sınaqdan çıxmış qədimi dava-dərmanlara inanırdı, məsələn, ravənd suyunu daha üstün tuturdu, amma mikroblar haqqında gedən yeni söhbətlərə heç vaxt inanmırdı.

Nenanın Darlinqlərin uşaqlarını uşaq bağçasına aparmağına baxmaq adama ləzzət edirdi. Onları bir xətlə boy cərgəsinə düzür və yağışdan qorumaq üçün özü dişində çətir tuturdu. Belə ki, Nena bütün münasibətlərdə nümunəvi bir dayə idi.